# MÜBARİZ KEŞİKDƏ

3 oktyabr 2019-cu il
Cümə axşamı
№ 38 (3453)
1933-cü ildən çıxır
www.mk.mia.gov.az
Qiymәti 40 qәpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlәr orqanları Azәrbaycan dövlәtinin әsas sütunlarından, dayaqlarından biridir. Polis Azәrbaycan dövlәtinә, dövlәtçiliyinә xidmәt edir. Azәrbaycanın dövlәt müstәqilliyinә xidmәt edir. Hәr bir Azәrbaycan vәtәndaşına xidmәt edir.**

# PREZİDENT İLHAM ƏLİYEV BAKININ ATATÜRK PROSPEKTİNDƏ YERLƏŞƏN PARKDA ƏSASLI YENİDƏNQURMADAN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLUB

Azәrbaycan Respublikasının Prezidenti İlham Əliyev vә birinci xanım Mehriban Əliyeva oktyabrın 1-dә Bakının Nәrimanov rayonundakı Atatürk prospektindә yerlәşәn parkda әsaslı yenidәnqurmadan sonra yaradılan şәraitlә tanış olublar.

Bakı Şәhәr İcra Hakimiyyәtinin başçısı Eldar Əzizov Prezident İlham Əliyevә vә birinci xanım Mehriban Əliyevaya parkda görülәn işlәr barәdә mәlumat verib.

Bildirildi ki, parkda yenidәnqurma işlәrinә cari ilin may ayından başlanılıb. Layihә çәrçivәsindә parkda әsaslı yenidәnqurma işlәri aparılıb, landşaft dizaynı yenilәnib. Bütün yaş qruplarına aid vәtәndaşlar nәzәrә alınaraq onlar üçün xüsusi guşәlәr yaradılıb. Parkda uşaq әylәncә vә trenajor qurğuları quraşdırılıb. Burada, hәmçinin konsert meydançası da var.



Prezident İlham Əliyevin rәhbәrliyi ilә son illәrdә Azәrbaycanda sosial-iqtisadi sahәdә hәyata keçirilәn layihәlәr ölkәmizin ümumi inkişafına sanballı töhfәlәr verib. Tәsadüfi deyil ki, bu gün Azәrbaycan sosial-iqtisadi inkişafına görә dünyada lider ölkәlәrdәn biridir. Əldә olunan nailiyyәtlәr Azәrbaycanın bütün regionlarının, o cümlәdәn paytaxt Bakının da timsalında aydın görünür.

Ümumi sahәsi 6,5 hektar olan bu istirahәt mәkanının yenidәn qurulması bir daha nümayiş etdirir ki, Azәrbaycan dövlәti tәrәfindәn insanların rahatlığı, onların sağlamlığı, bir sözlә, vәtәndaşların sosial mәsәlәlәrinin hәllinә daim xüsusi hәssaslıqla yanaşılır.

Prezident İlham Əliyev vә birinci xanım Mehriban Əliyeva parkda sakinlәrlә görüşüblәr.

Sonda xatirә şәkli çәkdirilib.



# BAKI NƏQLİYYAT AGENTLİYİNİN "KOROĞLU" NƏQLİYYAT MÜBADİLƏ MƏRKƏZİNİN AÇILIŞI OLUB

## *AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA AÇILIŞDA İŞTİRAK EDİBLƏR*

Sentyabrın 25-dә Bakı Nәqliyyat Agentliyinin "Koroğlu" Nәqliyyat Mübadilә Mәrkәzinin açılışı olub.

Azәrbaycan Respublikasının Prezidenti İlham Əliyev vә birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblәr.

Bakı Nәqliyyat Agentliyinin İdarә Heyәtinin sәdri Vüsal Kәrimli "Koroğlu" Nәqliyyat Mübadilә Mәrkәzindә yaradılan şәrait barәdә dövlәtimizin başçısına vә birinci xanıma mәlumat verib.

Qeyd edilib ki, Heydәr Əliyev vә Ziya Bünyadov prospektlәrinin kәsişmә nöqtәsi, Böyükşor qovşağı, elәcә dә metronun "Koroğlu" stansiyasının yaxınlığındakı bu Nәqliyyat Mübadilә Mәrkәzi ilk HUB olaraq 2016-cı ildә tәşkil edilib. Pilot layihә kimi mәrkәz әvvәlcә yüngül konstruksiyalardan hazırlanmışdı. Lakin sonradan әhalidәn gәlәn müraciәtlәrlә әlaqәdar "Koroğlu" HUB 2019-cu ildә әsaslı şәkildә yenidәn qurulub vә burada müasir nәqliyyat infrastrukturu yaradılıb.

Mәlumat verilib ki, paytaxtın yollarında yeni sәkilәr salınıb, görmә әngәlli vәtәndaşlar üçün şәrait yaradılıb. Hökumәt evinin arxasında pilot layihә kimi velosiped yolunun salınması nәzәrdә tutulur. Yolun 100 metrlik hissәsi artıq hazırdır. İndi velosiped yolunun örtüyü ilә bağlı tәcrübәlәr aparılır. Bu yolun salınmasında, әsasәn, yerli materiallardan istifadә edilir. Bakı şәhәrindә ümumilikdә 18,5 kilometrlik, ilk mәrhәlәdә isә 7,5 kilometrlik velosiped yolunun salınması nәzәrdә tutulur.

Sonra dövlәtimizin başçısı vә birinci xanım platformalarda vә gözlәmә zallarında yaradılan şәraitlә maraqlanıblar, Türkiyәnin BMC şirkәtinin istehsalı olan avtobusa baxıblar.

Prezident İlham Əliyev әlavә müasir avtobusların alınması ilә bağlı tapşırıqlarını verib.

# PAYTAXTIN 28 MAY, DİLARƏ ƏLİYEVA VƏ FİKRƏT ƏMİROV KÜÇƏLƏRİNİN KƏSİŞMƏSİNDƏ YENİ PARK İSTİFADƏYƏ VERİLİB

Oktyabrın 1-dә Bakının Nәsimi rayonunda 28 May, Dilarә Əliyeva vә Fikrәt Əmirov küçәlәrinin kәsişmәsindә yeni park istifadәyә verilib.

Azәrbaycan Respublikasının Prezidenti İlham Əliyev vә birinci xanım Mehriban Əliyeva parkda yaradılan şәraitlә tanış olublar.

Dövlәtimizin başçısının tapşırığı ilә salınan yeni parkda sakinlәrin vә turistlәrin istirahәti üçün hәrtәrәfli şәrait yaradılıb.

Müasir üslubda, orijinal dizaynda qurulan bu cür istirahәt mәrkәzlәrinin istifadәyә verilmәsi ilә paytaxtın gәzmәli yerlәrinә daha bir neçә ünvan әlavә olunub. Belә layihәlәrin icrası bir daha sübut edir ki, paytaxtımızın abadlaşdırılması istiqamәtindә görülәn işlәr davamlıdır vә yüksәk keyfiyyәtlә yerinә yetirilir. Bütün bunlar isә sosial layihә olmaqla yanaşı, hәm dә ümumilikdә, ölkәmizin iqtisadi qüdrәtini nümayiş etdirir.

Prezident İlham Əliyev paytaxtdakı binaların dam örtüklәrinin tәmiri vә hәyәtlәrin abadlaşdırılması barәdә tapşırıqlarını verib.

**Azәrbaycan Respublikasının Prezidenti İlham Əliyev vә birinci xanım Mehriban Əliyeva sentyabrın 27-dә Fransa Respublikasının ölkәmizdәki sәfirliyinә gәlәrәk, Fransanın sabiq Prezidenti, görkәmli dövlәt xadimi Jak Şirakın vәfatı ilә әlaqәdar başsağlığı veriblәr.**

***Oktyabrın 1-dә Azәrbaycan Prezidenti İlham Əliyev ölkәmizdә hәyata keçirilәn növbәti siyahıyaalınmada iştirak edәrәk siyahıyaalma vә sorğu vәrәqәlәrinin suallarını cavablandırıb.***

**Azәrbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva oktyabrın 1-dә Azәrbaycan әsilli dünyaca mәşhur müğәnni vә bәstәkar Sami Yusufla görüşüb.**

***Oktyabrın 1-dә Heydәr Əliyev Mәrkәzindә II Nәsimi-şeir, incәsәnәt vә mәnәviyyat Festivalının bağlanış qala-tamaşası olub.***

***Azәrbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva tәdbirdә iştirak edib.***

**Ölkәmizin rәhbәri sentyabrın 26-da Beynәlxalq Maliyyә Korporasiyasının iqtisadiyyat vә özәl sektorun inkişafı üzrә vitse-prezidenti Hans Piter Lankesin rәhbәrlik etdiyi nümayәndә heyәtini qәbul edib.**

❖❖❖❖❖

***Azәrbaycan Prezidenti İlham Əliyev sentyabrın 26-da respublikamızın yәhudi әsilli vәtәndaşlarını yeni il bayramı-Roş-Ha-Şana münasibәtilә tәbrik edib.***

❖❖❖❖❖

**Sentyabrın 27-dә ölkәmizin rәhbәri Beynәlxalq Valyuta Fondunun Sәrәncamçı direktoru vәzifәsinә seçilmәsi münasibәtilә xanım Kristalina Georgiyevaya tәbrik mәktubu göndәrib.**

❖❖❖❖❖

***Dövlәtimizin başçısı sentyabrın 28-dә Azәrbaycanda mәrkәzi bankçılığın yaranmasının 100 illiyi münasibәtilә vә bank işinin inkişaf etdirilmәsindәki xidmәtlәrinә görә Azәrbaycan Respublikası Mәrkәzi Bankının әmәkdaşlarının mükafatlandırılması haqqında sәrәncamlar imzalayıb.***

❖❖❖❖❖

**Azәrbaycan Prezidenti İlham Əliyev sentyabrın 30-da Fransa Respublikası Senatının Fransa-Qafqaz dostluq qrupunun sәdri vә Azәrbaycan üzrә sәdr müavini Alen Uperin başçılıq etdiyi nümayәndә heyәtini qәbul edib.**

❖❖❖❖❖

***Dövlәtimizin başçısı oktyabrın 1-dә Azәrbaycan Milli Elmlәr Akademiyasının Yusif Mәmmәdәliyev adına Neft-Kimya Proseslәri İnstitutunun әmәkdaşlarının mükafatlandırılması haqqında sәrәncamlar imzalayıb.***

❖❖❖❖❖

**Ölkәmizin rәhbәri oktyabrın 1-dә Azәrbaycan Respublikasının Gәnclәr Fondunun fәaliyyәtinin dәstәklәnmәsi ilә bağlı әlavә tәdbirlәr haqqında sәrәncam imzalayıb.**

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI



**Sentyabrın 25-dә Daxili İşlәr naziri, general-polkovnik Vilayәt Eyvazov polisin fәaliyyәti vә sәlahiyyәti ilә bağlı mәsәlәlәrlә әlaqәdar respublikanın cәnub bölgәsindәn müraciәt etmiş vәtәndaşları qәbul etmәk üçün Lәnkәran şәhәrindә sәfәrdә olub.**

Qәbuldan sonra nazir V.Eyvazov ulu öndәr Heydәr Əliyevin bu şәhәrin mәrkәzindәki abidәsini ziyarәt edәrәk önünә gül dәstәsi qoyub.

Daha sonra general-polkovnik Vilayәt Eyvazov DİN Daxili Qoşunlarının Lәnkәranda yerlәşәn hәrbi hissәsinә gedәrәk orada ölkәmizin suverenliyi vә әrazi bütövlüyü uğrunda şәhid olmuş hәrbi qulluqçuların xatirәsinә ucaldılmış abidәni ziyarәt edib, hәrbi hissәnin qәrargahındakı "Şәrәf kitabı"nı imzalayıb.

V.Eyvazov nazir müavini – Daxili Qoşunların komandanı, general-leytenant Şahin Mәmmәdovun müşayiәti ilә hәrbi qulluqçuların kazarma-mәişәt şәraiti, qidalanması, sağlamlıq durumu ilә maraqlanıb, hәmçinin silah tәminatı, avtomobil vә zirehli texnika parkı, әrazidә aparılan abadlıq, quruculuq işlәri ilә yaxından tanış olub.

*Ardı 2-ci sәhifәdә.*



# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

*Əvvəli 1-ci səhifədə.*

Hərbi hissənin sıra meydanında şəxsi heyət qarşısında çıxış edən Daxili İşlər naziri V.Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin məqsədyönlü daxili və xarici siyasəti sayəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının artdığını qeyd edərək, dövlət başçısının ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, hərbi qulluqçuların maddi-texniki təminatının, iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.



Daxili Qoşunların ölkəmizdə müstəqilliyin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olduğunu diqqətə çatdıran nazir şəxsi heyətin ictimai asayişin qorunmasında və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlıqla mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirakını, yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik bir quruma çevrildiyini məmnunluqla qeyd edib.

Şəxsi heyətə konkret tapşırıq və tövsiyələrini verən nazir sonda daxili işlər orqanlarının, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Daxili Qoşunların fəaliyyətini hər zaman yüksək qiymətləndirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı zati-aliləri cənab İlham Əliyevə dərin minnətdarlığını bildirib və əmin edib ki, hərbi qulluqçular qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, göstərilən ali diqqət və böyük etimadı xalqına, Vətəninə, dövlətinə və Prezidentinə sədaqətli xidməti ilə doğruldacaqdır.

Nazir xidməti vəzifələrin və döyüş tapşırıqlarının icrasında fərqlənmiş bir qrup hərbi qulluqçunun mükafatlandırılması barədə müvafiq göstəriş verib.

Cənub bölgəsinə səfəri çərçivəsində Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Daxili Qoşunların Cəlilabad şəhərində yerləşən hərbi hissəsində də olub. O, burada da şəxsi heyətin




hazırlıq səviyyəsi, xidməti, sosial-məişət şəraiti, maddi-texniki təminatı məsələləri ilə maraqlanıb.

Sonra Daxili İşlər naziri V.Eyvazovun rəhbərliyi ilə hərbi hissənin qərargahında komandir heyəti ilə əməliyyat müşavirəsi keçirilib. Nazir hərbi qulluqçulara konkret tapşırıq və tövsiyələrini verərək qanunvericiliklə müəyyən edilmiş vəzifə və tapşırıqların öhdəsindən bundan sonra da yüksək səviyyədə və layiqincə gələcəklərinə əminliyini ifadə edib.

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ

**Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov tərəfindən 2019-cu il oktyabr ayının 27-də Gəncə Şəhər Baş Polis İdarəsində Gəncə, Göygöl, Samux, Kəlbəcər, Şəmkir, Ağstafa, Tovuz, Gədəbəy, Qazax, Daşkəsən şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.**

**Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.**

**Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.**

Azərbaycan Respublikasının Daxili İşlər nazirinin müavini, polis general-leytenantı Oruc Zalov tərəfindən 2019-cu il oktyabr ayının 19-da Bərdə Rayon Polis Şöbəsində Bərdə, Ağcabədi, Tərtər, Ağdam, Şuşa, Laçın, Beyləqan, Füzuli, Xocavənd, Goranboy, Xocalı, Naftalan şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# VƏTƏNDAŞ MƏMNUNLUĞU ƏSAS ŞƏRTDİR

**Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov şəxsiyyət vəsiqələrinin verilməsi sahəsində vətəndaş məmnunluğunun artırılması ilə bağlı əlavə tədbirlər barədə əmr imzalayıb.**

**Əmrə əsasən, ərazi polis orqanlarının və "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən Daxili İşlər Nazirliyinin qeydiyyat məsələləri qurumlarının əməkdaşları tərəfindən Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi cari il noyabr ayının 1-dən yaşayış yeri üzrə qeydiyyatdan asılı olmayaraq, veriləcək.**

**Məlumat üçün bildiririk ki, ölkə Prezidentinin müvafiq Fərmanına uyğun olaraq, 2013-cü ilin sentyabr ayından tətbiqinə başlanılmış elektron daşıyıcısı olan ümumvətəndaş pasportları da vətəndaşlarımıza elə həmin ildən etibarən, yaşayış yerindən asılı olmayaraq, hər bir "ASAN xidmət" mərkəzində və ərazi polis qurumunda verilir.**

**Ümumən Daxili İşlər Nazirliyinin fəaliyyətinin bütün istiqamətlərində vətəndaşlara yüksək standartlara uyğun xidmətin göstərilməsi üçün zəruri tədbirlər görülür.**

# BİZ BUNA DA LAYİQİK

***İnsan yaşlanır, adam köhnəlir. Biz köhnələnlərdən yox, yaşlanan insanlardan yazırıq, yazmalıyıq...***

Onunla Ahıllar Günü görüşdük. Söhbətimiz zamanı çox mətləblərə toxunduq. Öyrəndik ki, bu yaxınlarda Rusiya Federasiyasının paytaxtında "Cinayət axtarış xidmətinin populyarlaşdırılması, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi sahəsində veteranların rolu" mövzusunda keçirilən MDB ölkələrinin müvafiq veteranlar təşkilatları rəhbərlərinin 6-cı Beynəlxalq seminarı təşkil edilib. Müsahibəyə nikbin notlarla başlayan veteranımız gördüklərini, eşitdiklərini "Mübariz keşikdə" ilə də bölüşdü.





Beləliklə, bu dəfəki qonağımız **DİN Veteranlar Şurasının sədri, istefada olan polis polkovniki Fərhad Süleymanovdur:**

-Tədbirin ilk günü Moskva Vilayəti Baş Polis İdarəsinin inzibati binasında rəsmi açılış mərasimi keçirildi. Tədbirdə MDB üzvü dövlətlərinin və Rusiyanın 86 vilayətinin veteranlar təşkilatlarının sədrləri iştirak edirdilər. Mən də məruzə ilə çıxış etdim, gördüyümüz işlər barədə ətraflı məlumat verdim. Bildirdim ki, veteranlarımız polis əməkdaşlarının bilik və bacarıqlarının, təcrübələrinin artırılmasında, peşə vərdişlərinin təkmilləşdirilməsində, gənclərin hərbi-vətənpərvərlik ruhunda formalaşmasında mühüm işlər görürlər. Sonra görüş maraqlı və faydalı müzakirələrlə davam etdi...



Görüşlərdən çox şey öyrəndiyini, bunu həm veteranlarla, həm də yerlərdə olarkən istifadə edəcəyini deyən Fərhad müəllimin, birdən yadına nə düşdüsə, bir anlıq fikrə getdi və ahıl insanlara xas təmkinlə, söhbətinə davam etdi:

***-Bizdən, yəni ölkəmizdən öyrəniləsi, görüb-götürüləsi çox şey var. İnanın, bir daha şahidi oldum ki, Azərbaycanın Daxili İşlər Nazirliyi üçün də Avropa standartlarına uyğun iş şəraiti yaradılıb, ən müasir tələblərə cavab verən tikililərimiz, texnikamız, təcrübəmiz, peşəkarlığımız var. Bildim ki, biz nəyə görə MDB-də liderik... Amma muzeyləri çox xoşuma gəldi. Kaş, biz də beləsinə sahib ola biləydik...***

***Muzeydə XVII əsrdə yaradılmış Rusiya Polisinin bütün fotoları, əşyaları, hətta onların uniformaları, orden və medalları belə qorunub-saxlanılıb...***

"Pamfilovun qəhrəmanları" muzeyini ziyarət isə Fərhad Süleymanovun səfərinə başqa bir ovqat qatıb.

*Teymur Əlizadə,*
*polis kapitanı*

**Əzəl gündən türkün süfrəsində ağsaqqal, ağbirçək xeyir duası olub, ahıl insanlar ən hörmətli adamlar hesab olunub. Onların həyat təcrübəsindən, müdrik kəlamlarından bəhrələnən nəsillər sevgi, mərhəmət hissi ilə əhatə olunublar. Bu gündə ağsaqqal, ağbirçək məsləhətinə böyük hörmət və ehtiramla yanaşılır.**

Uşaqlıqdan isə hər birimizə evdə valideynlərimiz, məktəbdə də müəllimlərimiz yaşlılara hörmət və ehtiramla yanaşmağı, ictimai nəqliyyatda qocalara yer verməyi, küçəni keçməkdə çətinlik çəkən ixtiyar şəxslərə kömək etməyi, tənha yaşayan yaşlılara yardım əli uzatmaq hissi aşılayıblar.

Bəzən ahıl insanları uşağa da bənzədirlər. Yaşlandıqca onlar da uşaq kimi kövrək, hər sözdən inciyən, yumşaq qəlbli olurlar. Amma uşaqlardan fərqli olaraq, onların hansısa bir hədiyyə ilə könlünü almaq olmaz. Onların daha çox qayğıya, xoş rəftara ehtiyacları var. Artıq geridə qoyduğu, keçib gedən illərin arxasınca baxan həmin insanların qəlbini oxşamaq onlar üçün təsəllidir.

Bu gün övladlarının əhatəsində, rahat, gözəl bir şəraitdə yaşlılıq günlərini yaşayan ahıllarla yanaşı, parkda skamyada oturaraq keçmişini xatırlayan, mağazadan ərzaq alıb əsasına söykənə-söykənə evinə gedən, yaxud övlad sevgisinə möhtac qalıb ömrünü "Qocalar evi"ndə sürdürən və hər addım səsinə gözü qapıya dikilən ahıllarımız var.

# UNUTMAYAQ Kİ, UNUDULMAYAQ...

Həmyaşıdları ilə ömrün gündoğanında qalan mürgülü xatirələri təzədən çözələyən, nuru azalmış gözləri ilə dünyamıza tamaşa edən ahılların bayramıdır. Bu bayram günündə onlara yardım göstərmək, əl uzatmaq, insan hənirinə, övlad nəfəsinə qəribsəyən qapılarını döymək, ot basmış cığırlarla yaşadıqları ünvana üz tutmaq, könülləri sevindirmək, ürəklərinə ümid işığı səpmək, təsəlli vermək üçün yaxşı fürsət deyilmi?

1993-cü il oktyabrın 1-dən ölkəmizdə Beynəlxalq Ahıllar Günü qeyd olunur. "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı"na əsasən, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində davamlı islahatlar həyata keçirilir.

Artıq gəncliyini geri qaytara bilməyəcək bu insanlar ahıl yaşlarında ən azından rahat bir şəkildə yaşayaraq o günləri xatırlamağa çalışırlar. Onlar üçün rahat şərait yaratmaq, qayğılarına qalaraq dəstək olmaq isə hər birimizin borcudur.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# RUSİYALI QONAQLAR POLİS AKADEMİYASINDA...

**Oktyabrın 1-də Polis Akademiyasında Rusiya Federasiyası DİN-in Krasnodar Universitetinin rəisi, polis general-leytenantı, hüquq elmləri doktoru, professor Aleksandr Simonenko və Tədris-metodik iş İdarəsinin rəisi Anton Ladiqa ilə görüş keçirilib. Tədbirdə akademiyanın professor-müəllim heyəti və kursantlar iştirak ediblər.**

Polis Akademiyasının rəisi, polis general-mayoru Nazim Əliyev təhsil müəssisələri arasında işgüzar əlaqələrin əsasının ötən ildən qoyulduğunu qeyd edib. Akademiyada hüquqşünaslıqla yanaşı, informasiya təhlükəsizliyi ixtisası üzrə də mütəxəssis hazırlığı aparıldığını vurğulayan N.Əliyev rusiyalı nümayəndələrə ali təhsil müəssisəsinin strukturu, tarixi, tədris prosesi haqqında ətraflı məlumat verib. Akademiyanın Rusiya universitetləri ilə çox yaxın əlaqələrinin olduğunu qeyd edən polis general-mayoru Krasnodar Universiteti ilə tələbə-müəllim mübadiləsinin, birgə elmi layihələrin hazırlanmasının əhəmiyyətini qeyd edərək yüksək ixtisaslı polis zabitlərinin hazırlanması üçün bu işlərin gələcəkdə də davam etdirilməsinin zəruriliyini vurğulayıb.

Səmimi qəbula görə təşəkkür edən Rusiya Federasiyası DİN-in Krasnodar Universitetinin rəisi A.Viktoroviç təmsil etdiyi ali məktəb haqqında mərasim iştirakçılarına məlumat verib. O, bildirib ki, hər iki ali təhsil ocağı arasında yaranan əlaqələri inkişaf etdirmək, elm və təhsil sahəsində ümumi maraqlara əsaslanan əməkdaşlıq əlaqələri qurmaq olduqca mühüm əhəmiyyət kəsb edir.





Daha sonra o, Polis Akademiyasının rəisi N.Əliyevə Krasnodar Universitetinin "Yubiley medalı"nı təqdim edib.

Heydər Əliyev Mərkəzi ilə tanışlıqdan sonra qonaqlar təhsil ocağında yeni təşkil edilən Azərbaycan-Rusiya Dostluq Mərkəzi, həmçinin oxu zalı, elektron kitabxana, kriminalistik təlim şəhərciyi, fənn kabinetləri, idman zalları və yataqxanalarla tanış olublar.

Tədbirin sonunda qonaqlara xatirə hədiyyələri təqdim edilib.

*Anar Qafarov,*
*polis baş leytenantı*

# ÖYRƏTDİLƏR, ÖYRƏNDİLƏR

**Sentyabrın 26-dan 27-dək Daxili İşlər Nazirliyi və UNEC Tədqiqat Fondunun birgə təşkilatçılığı ilə DİN-in “Xəzri” İstirahət və Sağlamlıq Mərkəzində “Fövqəladə hallar zamanı daxili işlər orqanları ilə media nümayəndələrinin qarşılıqlı fəaliyyəti, baş vermiş hadisənin ictimaiyyətə operativ çatdırılmasında KİV təmsilçilərinə köməkliyin göstərilməsi” mövzusunda təlim-təcrübə mübadiləsi keçirilib.**

Tədbirdə DİN-in Mərkəzi Aparatının, Bakı Şəhər Baş Polis İdarəsinin, Şəhər Baş Dövlət Yol Polisi İdarəsinin mətbuat xidmətlərinin nümayəndələri, UNEC Tədqiqat Fondunun Media Koordinasiya Departamentinin rəhbəri Ellada Əliyeva, Korporativ Kommunikasiyalar üzrə ekspert Nigar Miriyeva, yerli televiziya və KİV nümayəndələri ilə yanaşı, Türkiyə Respublikasından dəvət olunmuş mütəxəssislər Ergün Gümrah, Armağan Feke, Yonca Baltaoğlu, Havva Kızılırmaq iştirak ediblər.





İlk gün Türkiyədən gələn mütəxəssislər mövzu ətrafında məşğələlər keçərək, bu sahədəki təcrübələrini bölüşüblər və fəaliyyətləri barədə ətraflı məlumatlar veriblər.

Tədris prosesi, əsasən, “KİV-lər üçün rəsmi bəyanatların, mesajların, bülleten və rəy tipli digər məlumat materiallarının hazırlanması”, “KİV-də polisin fəaliyyəti ilə əlaqədar məlumatın, mütəxəssis açıqlamalarının və şərhlərinin yayılması”, “Mövcud fövqəladə hallar və problemlər barədə mətbuat konfranslarının, brifinqlərin, jurnalistlərlə görüşlərin keçirilməsi və təşkili”, “Vətəndaşların hüquqi biliyinin, əhalinin polisə inamının və tərəfdaşlığın yaradılmasına yönəlmiş profilaktik tədbirlərin təşkili və tədbirlərdə iştirak” və “İmic formalaşdırılması və ictimaiyyətin diqqətini cəlb etmək üçün zəruri vasitələrdən istifadə bacarıqları, sosial reklam, əhaliyə ideoloji təsir məqsədilə keçirilən aksiyalar” mövzularını əhatə edib.

Seminarın ikinci günü iştirakçıların tədris prosesində qazanılmış bilik və bacarıqlarının test edilməsi məqsədilə 5 qrup yaradılıb və simulasiya çalışmaları keçirilib. Müxtəlif mövzuları əhatə edən hər üç çalışmada komandalar ayrı-ayrılıqda fəallıq nümayiş etdirərək, verilmiş tapşırıqların ətrafında qrup rəhbərləri məruzə ilə çıxışlar ediblər.

Sonda mütəxəssislər məruzələri qiymətləndirib, görüləcək zəruri tədbirlər barədə tövsiyyələrini veriblər.

*T.Əlizadə,*
*polis kapitanı*

# YADA DÜŞÜR XATİRƏLƏR

**Xəzər burda rahat nəfəs alır. Üz tutduğunuz çimərliklərdən fərqli olaraq, qumların üstündə uşaq bezinə, qarpız qabığına və digər tullantılara rast gələ bilməzsiniz.**

**Dəniz uşaqların ömründə görmədikləri ən böyük, həm də şıltaq oyuncaqdır. Xəzərin sevincini, uşaqlarla necə oynadığını görmək istəyirsinizsə, özünüz gəlin, uşaqlarınızı da gətirin "Xəzri"yə.**

Qumların üstündə təkərli bir əşyaya diqqətlə baxdığımı görən bələdçim dedi ki, bu qumtəmizləyəndir. Hər gün axşam və səhər erkəndən çimərlik təmizlənir...

Əsəd Əsədli xilasedicidir. İki mövsümdür ki, Xəzərin sahilində insanların can güvənlikçisidir. Çimərliyə gələnləri təlimatlandırır, onları su ilə zarafat etməməyə çağırır. Əsəd ingilis və rus dillərində sərbəst danışır.

Çimərlikdən ayrılırıq, amma ürəyim Xəzərdə qalır...

Mərkəzin rəisi, polis polkovniki Rişad Qasımov “millət vəkili Mixail Zabelin də burda istirahət edir” deyəndə, düzü, təəccübümə səbəb olur. Biz millət vəkillərinin əksəriyyətinin yay gələndə xarici ölkələrdə istirahət etdiklərini tez-tez KİV-lərdən eşitmişik. Onunla görüşmək üçün səbirsizlənirəm...



Köhnə dostları, qələm adamlarını burda görəndə bir daha yəqin edirəm ki, sözə söykək olanlar hər şeyin yaxşısına, daha doğrusu, xoş ünsiyyət və diqqət olan yerə can atırlar. Görünən odur ki, “Xəzri” onları da sehirləyib...

Şair Rəna Adilqızı deyir ki, Antalyadan birbaşa bura gəliblər. Mən buna şübhə etmirəm, çünki qəlbi Vətən üçün döyünən insana yurd yeri cənnət kimidir...

Günel Quliyevanın həyat yoldaşı polis əməkdaşıdır. Qüdsiyyə Məmmədova isə həkimdir, ailəsi ilə birlikdə dincəlir. Rusiyada yaşayan azərbaycanlıların istirahət üçün bura üz tutmaları da diqqət çəkəndir. Məsələn, Sevindik Qurbanov Rusiya vətəndaşıdır. Deyir ki, Rusiyadakı dostlara, tanışlara “Xəzri” haqqında danışanda onlar əvvəlcə inanmayıblar. Sonradan tanışlıq üçün bir neçəsi bura üz tutub və o gündən hər il “Xəzri”yə istirahətə gəlirlər...

İstirahətçilərə nahar 13:00-dan 15:00-dək verilir. Burada da qeydiyyat aparılır. Nahara gələnlərlə danışmaq da marağımdadır.

“Mənə tanış gəlirsiniz, bəlkə də hansısa tədbirdə görüşmüşük sizinlə”. Nurani çöhrəsindəki təbəssümlə üzümə baxır və əlini uzadıb: “Mən Azad”,- deyir. Özümü təqdim edirəm. Gülümsəyir. “Mübariz keşikdə” məndən böyük olar, yəqin ki, hələ də çıxır”. “Kollektivi gənc olsa da o dünyagörmüşlə biz yaxşı yola gedirik, sözünə baxırıq” fikrimə gülümsəyir.

O, Milli Məclisdə çalışıb. “Xəzri”nin keçmişinə bələddir, bu gününün isə gözəlliyindən zövq alır. O, cənub həsrətli şair oğludur. Və doğum günündə oğluna yazdığı:

***“Dövlətini itir, varını itir,***
***Amma duz, çörəyi itirmə, oğlum***

-misraları sizə tanış gəldimi? Onun sözlərinə yazılmış mahnıları böyük sənətkarımız Zeynəb Xanlarovanın ifasında dinləmişik və sevmişik. Süleyman Rüstəmin yadigarı Azad Rüstəmzadə ilə "Xəzri"də söhbətləşməyimiz də bir tarixdir...

Bu da millət vəkilimiz Mixail Zebelin...

**Ardı var.**

*T.Hafiz*

# GƏLƏCƏK ÜÇÜN, GƏNCLİK ÜÇÜN...

**“Səbail Rayon Polis İdarəsinin əməkdaşlarının yolu bizim məktəbə də tez-tez düşür”,- deyən 189-190 nömrəli orta məktəbin direktoru Ceyran Quliyeva narkomaniya ilə mübarizəyə həsr olunmuş növbəti tədbiri açdı, qonaqları təqdim etdi. Sonra da dedi ki, polisin bu istiqamətdə gördüyü işlər ictimaiyyət tərəfindən dəstəklənir, təqdir olunur. Şagirdlərlə yanaşı, onların valideynlərinin də iştirakı bunun təsdiqidir.**

Həkim-narkoloq Fizzə Baxışova narkomanlığın genefondumuza ağır zərbə vurduğunu, onun doğurduğu təhlükələri hərtərəfli qiymətləndirməyin və mübarizə tədbirlərinin əlaqələndirilmiş formada aparılmasının vacibliyinə diqqət çəkdi.



“Nümayiş olunan videoçarx vasitəsilə narkomaniyadan əziyyət çəkənlərin, bu bəlaya düçar olanların gələcəyə ümidinin olmamasını öz dillərindən eşitmək, əslində, məqsədimizə xidmət edir və elə bizim istəyimiz də budur”,- deyən Rayon Polis İdarəsinin rəisi, polis polkovniki Cavid Muradov maarifləndirici tədbirlərin təkcə paytaxtımızda deyil, bütün respublikada uğurla aparıldığını bildirdi.



C.Muradov eyni zamanda, narkomaniya ilə mübarizənin o qədər də asan olmadığına diqqət çəkdi. Dedi ki, narkotacirlər yaxşı maskalanmış əsl "ölüm kabusları"dır. Onlar, əsasən, dünyagörüşü tam formalaşmamış uşaqları və gəncləri tora salır, cəmiyyətə bu zəif nöqtədən həmlə edir, məqsədlərinə çatmağa çalışırlar. Onlar narkotikin pulunu əvvəlcədən yox, çox vaxt onları bu ağır xəstəliyə düçar etdikdən sonra istəyirlər. Təhlillər göstərir ki, cinayətlərin bir çoxu narkotik aludəçiləri tərəfindən törədilir.

RPİ-nin rəisin şəxsi heyətlə iş üzrə köməkçisi, polis polkovnik-leytenantı Emil Quliyev, 9-cu Polis Bölməsinin rəisi, polis polkovnik-leytenantı Elsevər Qədirov qeyd etdilər ki, dünyada sabitlik adası olan Azərbaycanı gözü götürməyənlər bu vasitə ilə də kriminogen durumu dəyişməyə, cinayətkar əməllərin çoxalmasına çalışırlar. Lakin onlar qarşılarında dövlətimizi, onun torpağını, millətini, gəncliyini və gələcəyini sevən Azərbaycan Polisini görürlər.

Tədbirdə valideynlər də çıxış etdilər, gələcəyimiz olan gəncləri qorumağa yönəlik belə tədbirlərin keçirilməsini alqışladılar və polislə həmrəy olduqlarını bildirdilər.

# MAARİFLƏNDİLƏR VƏ MÜZAKİRƏ ETDİLƏR

**"Narkomaniya-bəşəriyyəti ölümə sürükləyən səssiz ölümdür. Bu bəlanın qarşısını almaq üçün polisin və digər qurumların həmrəylik nümayiş etdirərək məktəblərdə, əmək kollektivlərində keçirdiyi maarifləndirmə tədbirlərinə hər birimiz dəstək verməli, bəlaya qarşı birgə mübarizə aparmalıyıq.".**

Bu fikirlər Nardarandakı 295 nömrəli məktəbdə “Narkomaniyaya yox deyirik” mövzusunda keçirilən tədbirdə səsləndi. Məktəbin direktoru, millət vəkili Dilarə Cəbrayılova şagirdlərin vətənpərvəlik ruhunda böyüməsi, onların elmə-biliyə marağının artırılması ilə bərabər bu cür tədbirlərin keçirilməsinə görə polislərə təşəkkür etdi. Bildirdi ki, uşaqlar, yeniyetmələr arasında narkomaniyanın qurbanlarının sayını azaltmaq məqsədi ilə ailə, məktəb və polis vəhdətinə ehtiyac var.

Sabunçu Rayon İcra Hakimiyyətinin nümayəndəsi Ədalət Teymurov narkomaniyanın fəsadlarından,maarifləndirmənin vacibliyindən, aparılan mübarizədən danışarkən dedi ki, bu bəla cəmiyyətin mənəvi, əxlaqi dəyərlərini sarsıdır, sosial-iqtisadi inkişafa mənfi təsir göstərir, insanların həyat və sağlamlığına ciddi təhlükə yaradır və cinayətkarlığın artmasına səbəb olur.

Həkim-narkoloq Sevinc Cəfərova narkomaniyanın birbaşa genefonda zərərini və narkomaniyanın müalicəsinin çox çətin olduğunu qeyd etdi.



“Hamı narkomaniyanın ziyanlı olduğunu bilir, təəssüf ki, onun toruna düşənlərin sayı günbəgün, özü də çox sürətlə artır. Niyə? Bax, elə bu “Niyələrə” cavab tapmaq üçün sizinlə görüşə gəlmişik”,- deyən RPİ-nin rəisi, polis polkovniki Eldar İlyasov narkotiklərlə hüquq-mühafizə orqanlarının, xüsusən də polisin və digər dövlət orqanlarının qətiyyətli mübarizəsi barədə görülən işlərdən danışdı. E.İlyasov narkotikə aludəçiliyin, əsasən, gənclik dövründə başlanıldığını, buna görə də elə məktəb dövründən profilaktik işlərin aparılmasının vacibliyinə diqqət çəkdi. RPİ 42-ci Polis Bölməsinin rəisi, polis polkovnik-leytenantı Azər Məmmədov, polis mayoru Əli Babayev, Rayon Gənclər və İdman İdarəsinin rəisi Rakif Əliyev yeniyetmə və gənclərin narkomanlıq və digər zərərli vərdişlərdən qorunması istiqamətində aparılan işlər barədə söhbət açaraq gənc nəslin savadlı, vətənpərvər ruhda böyüməsi, sağlam inkişaf etməsi, zərərli vərdişlərdən uzaq olması üçün görülməli işlərdən danışdılar və müntəzəm olaraq maarifləndirici tədbirlərin keçirlməsinin vacibliyini vurğuladılar.



Sonda videoçarx nümayiş olundu, şagirdləri maraqlandıran suallar cavablandırıldı.

*H.Təmirov,*
*polis mayoru*

# POLİSƏ TƏŞƏKKÜR EDİRLƏR

***Zərdab rayon sakini Qasım Cavadov DİN-ə təşəkkür məktubu ünvanlayıb. O, məktubunda körpəsinin həyatını xilas etdiklərinə görə polis əməkdaşlarına minnətdar olduğunu bildirir.***

***Hadisə Zərdabın Ağabağı kəndində baş verib. Doqquz aylıq körpəsinin anidən halının pisləşdiyi xəbərini alan Q.Cavadov təlaş içində evə qaçırmış.***

***Rayon mərkəzindən 20 kilometr uzaqlıqda yerləşən həmin kənddə xidmət aparan Zərdab Rayon Polis Şöbəsinin əməkdaşları onun qaçdığından şübhələnərək yaxınlaşaraq nə baş verdiyini soruşublar. Qasım 9 aylıq körpəsinin anidən halının pisləşdiyi xəbərini aldığı üçün evə qaçdığını bildirib.***

***Polis əməkdaşları Rəmzi Səmədov və Ülvi Hüseynov dərhal onu xidməti avtomobillərinə mindirib, birlikdə onun yaşadığı evə gəliblər. Əvvəlcə polislər balaca Ruslana ilkin tibbi yardım göstəriblər. Daha sonra uşağı təcili Rayon Mərkəzi Xəstəxanasına çatdırıblar.***

*****

Bakı şəhər sakini Zaur İsmayılov da DİN-ə ünvanladığı məktubunda polis əməkdaşlarına təşəkkürünü bildirir. Qeyd edir ki, senytabrın 4-də axşam saatlarında Xətai rayonu ərazisində yerləşən istirahət parkında gəzərkən içərisində pulqabısını itirib. Bir saata yaxın apardığı axtarış heç bir nəticə vermədiyinə görə evə qayıdıb: “Saat 01:30 radələrində mənzilimin qapısı döyüldü və gələn şəxs özünü polis kapitanı Təhməzov kimi təqdim edərək, adımı və soyadımı soruşdu. Suallarına cavab verdikdən sonra mənə məxsus pulqabını qaytaranda mən həm təəccüb, həm də sevinc hissləri yaşadım. O, pulqabındakı əşyaların yerində olmasına əmin olduqdan sonra mənzili tərk etmək istədi. Lakin onun ayaq saxlamasını xahiş etdim və ona dərin minnətdarlığımı bildirərək, özü haqqında məlumat verməyini rica etdim."

Məlum oldu ki, o, Masallı Rayon Polis Şöbəsinin əməkdaşı, polis kapitanı Mirxas Təhməzovdur. Məzuniyyətdə olduğu üçün Bakı şəhərindədir. İstirahət parkının ərazisindən keçərkən pulqabımı tapmış və sahibinə qaytarılması üçün bütün tədbirləri görmüşdür.

*N.Cavadov, polis mayoru*



***Payız qəlb fəslidir, hisslərin dostudur. Payız bayramlar fəslidir. İlk dərs ili, Ahıllar, Müəllimlər və Bayraq günü...***

***Bu da payızın ömür payıdır. Hamısı da nostalji hisslərlə dolu, duyğusal və doğmadan-doğma...***

***Xoş gəldin, payız. Nə yaxşı ki, varsan. Yenə-yenə gəl ki, günlərin, saatların qarmaqarışıqlığında, təlaşında, narahatlığında ruhumuza sığal çəkəsən...***

***Deyirlər, fəsillərin yaxşısı-pisi yoxdur. Amma payız bənzərsizdi. Dörd fəsli yaşadır ömründə - ilk bahardan, son baharadək. Bu baharda itən yarpaqlar, elə o baharda bitən yarpaqlardır...***

# ÖMRÜN GÖY QURŞAĞI-Son bahar

***Duyğular, düşüncələr fəslidir payız. Payız ömrünün, gününün həzinliyi, hüznü insanda kövrək, acılı-şirinli bir ovqat yaradır. Solğun yarpaq rəngləri, əsən külək, payız yağışının səsindəki əfsun sanki dünya içində bir dünya yaşadır sənə, mənə, bizə...***

***Hərdən heç kim görməsin deyə, üzünü bir payız yarpağına söykəyib pıçıldayırsan:***

***Yenə payız gəldi, qonaqlar kimi...***

***İtəcək, bitəcək saralmış yarpaqlar kimi...***

***Payız tənhaları, tənhalarsa payızı sevməz. O, yalqız olduğunu sənə hər addımbaşı xatırladar – çiskinli gündüzlərdə, boz axşamlarda, soyuq gecələrdə...***



*Ə.Ruhiyyə*

# “XƏZRİ” sizi gözləyir!



**Qeyd:** 1. “Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında” Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 22,50 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 67,50 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 90 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 115 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Daxili İşlər Nazirliyinin “Xəzri” İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 2-ci mövsüm üzrə 17 sentyabr 2019-cu il - 31 may 2020-ci il tarixlərə qiymətləri**

**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə “Koroğlu” metro stansiyasından 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

| 17 sentyabr 2019-cu il - 31 may 2020-ci il (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 180 manat, bir nəfər tək qaldıqda 150 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 22,50 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 45,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 90,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |
| 12 yaşdan yuxarı şəxsə yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 70,00 manat | |

Rusiya Daxili İşlər Nazirliyi internetdə hüquq-mühafizə orqanlarına hörmətsizlik ifadə edən informasiyalara görə məsuliyyətə cəlb olunma ilə bağlı qanun layihəsi hazırlamağa başlayıb. Qısası, qonşu ölkədə polisi sosial şəbəkələrdə təhqir edənlər həbs olunacaq. Rusiya Daxili İşlər Nazirliyi özü bununla bağlı məlumat yayıb.

Nazirlikdə hiss edirlər ki, uyğun mexanizmi işə salmağın zamanı yetişib. Çünki sosial şəbəkələrdə polislər çox təhqir olunur.

Əslində, qanunvericilikdə dövlət xadimlərinin təhqiri ilə bağlı məsuliyyətə cəlb olunma cəzası var. Həbsxanadan canını 300 min rublla (təxminən 5 min dollar) qurtarmaq mümkündür.




*****

***Estoniya polisi avtomobil yollarında sürət rejimini pozan sürücülərlə mübarizədə eksperimental üsulun tətbiqinə başlayıb.***

***Sürət həddini aşdığı üçün yolda saxlanılan sürücülərə cəriməyə alternativ cəza təklif olunur. Sürücü 400 avro cərimə ödəməmək üçün avtomobilini yol kənarında 1 saat saxlamaqla gözləməli, daha sonra yoluna davam etməlidir. Bunu şərti olaraq, “sakitləşdirici tənəffüs” adlandırıblar.***

***Estoniya polisi bu təcrübənin effektivliyini görərsə müvafiq cəza növünün qanunda əks olunacağı bildirilir.***

*****

Yunanıstan polisi keçirdiyi irimiqyaslı əməliyyat nəticəsində uşaqların qanunsuz yolla övladlığa götürülməsi, surroqat anaların cəlb edilməsi və toxum hüceyrələrinin ticarəti ilə məşğul olan dəstə üzvlərini zərərsizləşdirib. Bu barədə Saloniki şəhərinin Təhlükəsizlik İdarəsinin rəhbəri, polis general-mayoru Antonios Tzitzis bildirib.

Salonikin müxtəlif rayonlarında keçirilmiş əməliyyatda təxminən 80 polis və Avropol əməkdaşı iştirak edib.

Polis generalının bildirdiyinə görə, əməliyyatda 12 nəfər həbs edilib, 66 nəfər barəsində cinayət işi qaldırılıb. Nəticədə 22 uşağın satın alınması faktı, həmçinin 24 qadından qanunsuz olaraq donor kimi istifadə olunması aşkarlanıb.

Bu, polis tərəfindən aşkarlanmış uşaqların qanunsuz övladlığa verilməsi və toxum hüceyrələrinin ticarəti ilə məşğul olan ən böyük mütəşəkkil qruplaşmadır.

*****

***Ukrayna və Türkiyə sürücülük vəsiqələrinin qarşılıqlı tanınması ilə bağlı ilkin razılığa gəlib. Bu barədə Ukrayna Milli Polisinin Mətbuat Xidməti məlumat yayıb. Razılıq Ankarada səfərdə olan Ukrayna və Türkiyə Daxili İşlər nazirləri arasında görüşdə əldə edilib. Nazirlər müvafiq razılaşmanın yaxın vaxtlarda imzalanacağına ümid etdiklərini bildiriblər.***

*C.Natiq*

# Sentyabrın 25-dən oktyabrın 1-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 119 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 51 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 177, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 5, borclu şəxs qismində axtarışda olan 88 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 8 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 12 nəfər ölmüş, 5 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 70 fakt müəyyən edilmişdir.

Sumqayıt ŞPİ-nin rəisi Nəriman İmanov və şəxsi heyəti Daxili Təhqiqatlar İdarəsinin rəis müavini Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Səbail RPİ-nin rəisi Cavid Muradov və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan ŞPŞ-nin rəisi Hikmət Quliyev və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Pirallahı RPŞ-nin rəisi Cümşüd İsmayılov və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Masallı RPŞ-nin rəisi Habil Əmiraslanov və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göyçay RPŞ-nin rəisi Sənan Əsədov və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Cəlilabad RPŞ-nin rəisi Mübariz Quliyev və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Biləsuvar RPŞ-nin rəisi Əlyəddin Səfərov və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Siyəzən RPŞ-nin rəisi Valik Vəlimətov və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala RPŞ-nin rəisi Vüsal Şəbəndiyev və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qazax RPŞ-nin rəisi Ədalət Əliyev və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tərtər RPŞ-nin rəisi Elçin Qasımov və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şabran RPŞ-nin rəisi Məhəmməd İbrahimov və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zərdab RPŞ-nin rəisi Azər Əfəndiyev və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Oğuz RPŞ-nin rəisi Vüqar Əliyev və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göygöl RPŞ-nin rəisi Müqalib Abdıyev və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.724
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00